**BAHAR ƏHMƏDOVA,**
*Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi kitabxananın şöbə müdiri, bahar.ahmedova1988@gmail.com*

# RƏQƏMSAL ƏSRDƏ MİLLİ KİTABXANALARIN ELEKTRON RESURSLARI: FORMALAŞDIRILMASI VƏ İSTİFADƏSİ

**Xülasə:** *Məruzədə informasiyalaşdırılmış cəmiyyət şəraitində kitabxanaların üzərinə düşən vəzifələrdən bəhs olunur. Kitabxanalarda elektron xidməti həyata keçirmək üçün hazırlanan elektron resursların növləri, hazırlanma üsulları, istifadəçilərə çatdırılması yolları sadalanır. Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxananın bu sahədəki təcrübəsi işıqlandırlır.*

**Açar sözlər**: *elektron resurs, informasiyalaşdırılmış cəmiyyət, elektron xidmət*

Yeni eranın başlanması, yeni cəmiyyətlərin formalaşması, yeni tələblər üzərində möhkəmlənən sivilizasiyaların ehtiyacından doğan informasiyalı cəmiyyətin yaranmasını qaçınılmaz etmişdir. Bu cəmiyyətin inkişafına qanunauyğun olaraq onun informasiya tələbatı da artmışdır. Müasir şəraitdə kitabxanalar kommunikasiya vasitəsi kimi olduqca böyük rol oynamaqla cəmiyyətin informasiyalaşdırılması prosesində çox əhəmiyyətli iş görürlər. Kitabxana işinə yeni informasiya texnologiyalarının tətbiqi onların qarşısında çox geniş imkanlar açır. Müasir dövrdə kitabxananın öz işində qazanacağı uğurlar kompüterin imkanlarından, internet texnologiyasından nə səviyyədə istifadə edilməsindən asılıdır. Dövrün tələblərinə uyğun olaraq kitabxanalarda elektron kataloqun, elektron kitabxananın təşkili, elektron məlumat bazalarının yaradılması, oxuculara yeni virtual xidmətin təqdim edilməsi kitabxanaların qarşısında duran prioritet məsələlərdəndir.

Məlumdur ki informasiya cəmiyyətinin qurulması üçuncü minilliyin əsas ideologiyasıdır və hal hazırda bütün dünya qlobal informasiya cəmiyyətinin formalaşması mərhələsini yaşayır. İnformasiya cəmiyyətinin əsas məqsədi, bütövlükdə cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya təlabatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında müxtəlif təyinatlı resursların formalaşdırlımasıdır. Ölkəmizdə də informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlerindən biri kimi qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk xarici səfəri kimi 2003-cü il

dekabrın 12-də Cenevrədə İnformasiya Cəmiyyəti məsələləri üzrə Dünya Sammitində iştirak etmiş və Azərbaycan dövlətinin bu sahəyə diqqətini beynəlxalq aləmə bir daha nümayiş etdirmişdir.

Elektron xidmət informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron xidmət uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti göstərərək bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Elektron xidməti həyata keçirmək üçün üçün isə kitabxanalarda elektron resurslar yaradılmalıdır. Bu gün artıq bir çox kitabxanalarımızda informasiya təminatında yeni texnologiyalar tətbiq etməklə bərabər elektron məlumat bazalarının, yəni elektron resursların yaradılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Bu gün elektron resurslar – bütün növ elektron sənəd-informasiya resursları müasir kitabxana sisteminin ayrılmaz bir hissəsinə çevrilmişdir ki, bu məqsədlə də kitabxanalarda əsas diqqət yaradılmış və yaradılacaq elektron resurslara yönəldilmişdir. Buna görə də elektron resursların yaradılması, istifadəsi, idarə olunması, saxlanılması bizdən, peşəkar kitabxanaçı kadrlardan bu sahəyə yeni yanaşma və daha çox məsuliyyət tələb edir.

Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi Kitabxanada da son illər oxuculara xidmət göstərilməsi prinsip etibarı ilə yeni səviyyəyə keçmişdir. Kitabxanada sənəd-informasiya resurslarının ayrılmaz hissəsi olan elektron resurslar istifadəçilərə tam şəkildə təqdim edilir. Materialların toplanması, seçilməsi, skan edilməsi, sistemləşdirilməsi üzrə aparılan böyük işlər sayəsində oxucular kitabxananın elektron resurslarından keyfiyyətli və tam informasiya almaq imkanı təşkil edilir.

Respublikamızda elektron kitabxananın yaradılması, kitabxana proseslərinin avtomatlaşdırılması, müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi sahəsində də S.Vurğun adına Mərkəzi Kitabxananın təcrübəsi var. Müasir dövrün tələblərini və oxucuların elektron informasiyaya olan tələbatını nəzərə alaraq kitabxanamızın əməkdaşları aktual mövzularda elektron resurslar hazırlayırlar. Hazırlanmış elektron resurslardan oxucular həm kitabxananın (*sumlib.az*) saytında və *sumgait.cls.az* portalında, həm də kitabxanadaxili lokal şəraitdə elektron resurslar zalında istifadə edirlər. Şəhərimizin xəbər portallarında, kitabxananın saytında və facebook səhifəsində istifadəçilərə hazırlanmış elektron resurslar haqqında mütəmadi məlumat verilir. Mərkəzi kitabxanada və kitabxananın filiallarında keçirilən İnformasiya saatlarında da oxucular kitabxananın əməkdaşları tərəfindən hazırlanmış elektron resurslarla tanış edilir.

Kitabxanamızda bir neçə növ elektron resurs hazırlanır. Bunlar aşağıdakılardır:

- tammətnli elektron resurslar;
- elektron kitablar;

- elektron biblioqrafik göstəricilər;
- elektron məlumat bülletenləri;
- kitabxananın fondunda olan bir çox aktual çap nəşrlərinin elektron versiyaları (əsasən dövri nəşrlərdə çap olunmuş elmi və analitik-təhlili məqalələr).

Elektron resurslar Kitabxananın fondunda olan kitab, qəzet və jurnal materiallan və əldə edilmiş arxiv sənədləri, eləcə də internet resurslarından məqsədyönlü istifadə olunmaqla yaradılır. Kitabxanamızda elektron resurslar aşağıdakı yollarla hazırlanır:

- materialın scan edilməsi;
- internetde mövcud olan resursun köçürülməsi;
- kitabxananın əməkdaşları tərəfindən kompüterdə yığılması.

Kitabxanamızda həmçinin oxucuların lokal istifadəsi üçün elektron kitabxana da mövcuddur. Elektron kitabxanamızda müxtəlif profilli və məzmunlu 1000-ə yaxın ədəbiyyat toplanıb. Lokal istifadə üçün nəzərdə tutulsa da, oxucuların tələbatına uyğun olaraq kitablar email vasitəsilə istifadəçilərə göndərilir.

Sumqayıt şəhər Mərkəzi Kitabxanasının biblioqrafik-informasiya fəaliyyətinin mühüm istiqamətlərindən biri də elektron biblioqrafik göstəricilər və elektron məlumat bülletenlərinin hazırlanmasıdır. Kitabxanada hazırlanmış biblioqrafik göstəricilər əsasən aktual mövzulara və görkəmli elm və mədəniyyət xadimlərinə həsr olunur. Son illər hazırlanmış vəsaitlərdən “Molla Pənah Vaqif – 300”, “Tofiq Quliyev – 100”, “Sultanməcid Qənizadə - 150”, “El atası – Hacı Zeynalabdin Tağıyev”, Əliağa Şıxlinski – 150”, “Üzeyir Hacıbəyov -130”, “Şah İsmayıl Xətayi”, “Rəşid Behbudov – 100” və s. misal göstərmək olar.

Kitabxanamızda diyarşünaslıq xarakterli resursların hazırlanmasına xüsusi önəm verilir. Geniş məzmun və prioritetliyinə görə xüsusi elektron layihə şəklində işlənmiş “Heydər Əliyev Sumqayıtda”, “İlham Əliyevin Sumqayıta səfərləri”, “Sumqayıt hadisələri 1988” adlı tammətnli elektron resursları buna misal olaraq göstərmək olar. Oxuculara təqdim olunan“Heydər Əliyev Sumqayıtda”, “İlham Əliyevin Sumqayıta səfərləri” adlı elektron resurslarda dövlət başçılarının Sumqayıta səfərlər çərçivəsində şəhərdə tikilən müəssisələrin, sosial əhəmiyyətli obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirakı, aparılan yenidənqurma və abadlıq işləri ilə tanışlığı, ictimaiyyət nümayəndələri ilə görüşləri, bu görüşlər zamanı söylədiyi nitqləri, müraciətləri öz əksini tapmışdır. “Sumqayıt hadisələri 1988” adlı tammətnli elektron resursda isə istifadəçilərə 1988-ci il fevralın 27-28-də Sumqayıtda bədnam qonşularımızın öz əli və təhriki ilə törədilən hadisələrə dair 30 il ərzində - (1988-2018-ci illərdə) respublika və yerli mətbuatda dərc olunan məqalələrin tam mətni təqdim olunur.

Diyarşünaslığa dair "Sumqayıt danışan tariximizdir", "Sumqayıtın mədəni həyatı", həmçinin Sumqayıtın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinə həsr olunmuş "Əşrəf Veysəlli – 80", "Feyzi Mustafayev-80", "Vaqif İbrahim" və s. elektron biblioqrafik göstəricilər də hazırlanmışdır.

Kitabxanada hazırlanan resursların digər bir növü isə məlumat bülletenləridir. Kitabxananın fonduna daxil olan yeni nəşrlərin əsasında mütəmadi olaraq məlumat bülletenleri hazırlanır. Kitabxanada kitabxana-informasiya xidmətinin müasir formalarından istifadə olunaraq hazırlanan "Sumqayıtım" məlumat bülleteni diyarşünaslıq xarakterli yeni biblioqrafik informasiyanı tələbatçılara operativ şəkildə çatdırmaq məqsədi ilə yaradılmışdır. Məlumat bülleteni kitabxananın elektron kataloquna daxil edilmiş dövri mətbuat materiallarının əsasında tərtib edilir.

Kitabxanamızın əməkdaşları tərəfindən dünyanın və ölkəmizin aparıcı kitabxanalarının, ələlxüsus da bu gün 95 illik yubileyini qeyd etdiyimiz Milli kitabxanamızın əhaliyə kitabxana-informasiya xidməti sahəsində müasir dövrdə əldə edilmiş nailiyyətləri, xüsusilə də elektron resursların və məlumat bazalarının yaradılması sahəsindəki fəaliyyətləri ardıcıl izlənərək, sistemli şəkildə öyrənilir. Bu da Sumqayıtda kitabxana işinin dayanmadan inkişafına öz töhfələrini verir və verəcəkdir.

**Ədəbiyyat**


1. Azərbaycan kitabxanaları modernləşmə yollarında.- B.: Apostrof, 2012.- S.11-17. (74 s.)
2. Babaxanova, N. Azərbaycan kitabxanaları beynəlxalq informasiya mühitində.- B., 2016.- 26 s.
3. Elektron məlumat bazalarının yaradılması və virtual xidmət.- B., 2012.- S.5. (46 s.)
4. Xələfov, A. Kitabxanalar biliklər cəmiyyətində.– B., 2006.– S.87; 128 (516 s.)
5. Xələfov, A. Məqalələr toplusu.- B., 2011.- S. 127. (463 s.)
6. Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin illik hesabatı.- 2017.

## Электронные ресурсы национальных библиотек в эпоху цифровых технологий: формулирование и использование

**Резюме:** *В докладе основное внимание уделяется задачам, стоящим перед библиотеками в информационном обществе. Перечислены типы электронных ресурсов библиотек, которые подготовлены для электронной службы, методы подготовки и способы общения с пользователями. В этой сфере освещается опыт Центральной Библиотеки им. С. Вургуна города Сумгайита.*
**Ключевые слова**: *электронный ресурс, информационное общество, электронная служба*

## Electronic resources of national libraries in the digital age: formulation and use

**Abstract:** *The talk deals with the duties of Libraries in the case of informed community. Some kinds of ready electronic resourses prepared for electronic service in libraries, their preparation and delivery to users are enumerated as well. The practice of the Central Library named after S.Vurgun in this sphere is illuminated here.*
**Key words**: *electronic resourses, informed community, electronic service.*